# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№ 287/2** **19 may 2017-ci il**

## 2016-cı il üçün auditorların reytinq səviyyəsinin müəyyən edilməsi haqqında

“Azərbaycan Respublikasında Auditor Xidmətinin İnkişaf Konsepsiyasının (2012-2020-ci illər) VI fəslinin 16-cı və Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 1.5-ci “2016-cı il üçün auditorların reytinq səviyyəsinin müəyyən edilməsi” bəndlərinin icrası ilə əlaqədar, Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2012-ci il 17 iyul tarixli 233/1 saylı qərarı ilə təsdiq edilmiş “Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda”ya əsasən 2016-cı il üçün auditorların reytinq səviyyəsinin müəyyən edilməsi ilə əlaqədar Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun təqdim etdiyi materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 1.5-ci «2016-cı il üçün auditorların reytinq səviyyəsinin müəyyən edilməsi» bəndinin icrası ilə əlaqədar hazırlanmış «Auditorların reytinq cədvəli» Şurada müzakirə zamanı göstərilən irad və təkliflər nəzərə alınmaqla təsdiq edilsin (əlavə olunur).
2. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Palatanın Şurası yanında Milli auditə dəstək və məcburi audit üzrə komitənin sədri, “Mak Azərbaycan” MMC-nin direktoru – auditor Z.Hüseynova və “Cavid-Audit” MMC-nin direktoru – auditor Ş.Məmmədova tapşırılsın ki, 2017-ci il 1 noyabr tarixinədək beynəlxalq təcrübə nəzərə alınmaqla auditorların reytinq səviyyəsinin müəyyən edilməsinin yeni metodikasını hazırlayıb təsdiq olunması üçün təqdim etsinlər.
3. «Auditorların reytinq cədvəli»nin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**